

# Mənəvi dəyərlər körpüsü

*Muzeylər nə və kim üçün yaradılır, qorunur? Onların qorunmasında məqsəd nədir? Muzeylər doğrudanmı, hər bir ölkənin mədəniyyətinə və onun inkişafına öz təsirini göstərir? Ümumiyyətlə, muzey nədir?*

Muzey - əşyaların (tarixi, maddi və mənəvi mədəniyyət abidələri) yığılması, qorunması, öyrənilməsi və eksponatlaşdırılması işi ilə məşğul olan elmi-tədqiqat və elmi-maarifləndirici idarədir. Muzeylərin yaranması, elmi-ictimai fəaliyyəti, elmi sənədləşdirilməsi, komplektləşdirilməsi, muzey işinin nəzəriyyə və metodikası, muzey memarlığının əsasları, muzeylərin müasir avadanlıq və eksponatlarla təchizi məsələləri ilə məşğul olan elm sahəsinə muzeologiya (muzeyşünaslıq) deyilir. Muzeyşünaslığın başlıca vəzifələrinə, həmçinin, muzey işi prinsiplərinin elmi əsasları üzərində qurulması da daxildir.

Qədimdə muzey anlayışına yalnız incəsənət və elm sahəsi üzrə əşyaların (eksponatların) kolleksiyalaşdırılması aid edilirdisə, XVIII əsrlərdən başlayaraq bu anlayışa eksponatların yerləşdiyi binalar, XIX əsrdən isə muzeydə aparılan elmi-tədqiqat işləri daxil edilmişdir.

Muzey "museyon" sözündən götürülüb, yunanca "muzalar məbədi" deməkdir. İntibah dövründən (Renessans) başlamış, bu söz öz müasir mənasını alaraq "muzey" adlandırılmışdır. İlk museyon (təhsil ocağı mənasında) e.ə. 290-cı ildə İskəndəriyyədə Ptolemey tərəfindən yaradılmışdır. Bura yaşayış otaqları, oxu zalları, botanika və zoologiya bağları, rəsədxana və kitabxana daxil idi. Sonralar tibbi və astronomik alətlər, heykəllər və büstlər də əlavə olunub ki, onlar da tədrisdə istifadə edilmişdir. (Haqqında danışdığım museyon təxminən e.ə. 270-ci ildə məhv edilmişdir). Antik museyon müasir muzeydən onunla fərqlənirdi ki, ondan gündəlik təhsil ocağı kimi istifadə edilirdi.

Muzey işinin inkişafı, insanların mənəvi həyatında rolu XVIII-XIX əsrlərdə daha qabarıq surətdə nəzərə çarpırdı. Belə ki, XIX əsrdə muzey inşasında Almaniya qabaqcıl ölkəyə çevrilsə də, ilk müasir rəsmi dövlət və ictimai muzeyi 1753-cü ildə İngiltərədə yaradılmışdır.

Azərbaycanda isə ilk muzeyin yaradılmasından bizi cəmi bir əsrdən də az vaxt ayırır desək yanılmarıq. Çünki, Azərbaycan tarixində ilk rəsmi muzey 1919-cu ildə Azərbaycan Parlamenti nəzdində yaradılan "İstiqlal" muzeyidir.

Elmi-texniki proqres və hərtərəfli yeniləşmələrlə zəngin olan informasiya əsrimizdə muzey fəaliyyətinin canlanması, daha interaktiv olması cəmiyyətimiz üçün olduqca vacibdir.

XX əsrin 60-cı illərindən muzeylərin pedaqoji fəaliyyəti (uşaq, yeniyetmə və böyüklər üçün xüsusi layihələr) başlayır. 1947-ci ildə muzeylərin fəaliyyətinin inkişafı üçün beynəlxalq təşkilat - İCOM (International Council of Museums) yaradılmışdır. Muzeylərin birgə yaradıcılıq səyi nəticəsində - dünya ictimaiyyətinin diqqətini görülən işlərə cəlb etməkdən ötrü - 1977-ci ildə Moskvada, bu təşkilatın təşəbbüsü ilə hər il may ayının 18-də keçirilən Beynəlxalq Muzeylər günü təşkil edilmişdir ki, bu gün respublikamızda da yüksək səviyyədə qeyd olunur və tədbirlər, konfranslar, sərgilər təşkil edilir.

XX əsrin 80-cı illərindən başlayaraq, dünyada muzeylərə dair 150-dən çox jurnal buraxılırdı. Bunların ən mühümü isə YUNESKO Beynəlxalq Muzeylər Şurasının nəşr etdirdiyi "Museum" jurnalıdır.

Bildiyimiz kimi bütün dünyada muzeylərin təşkili və muzey eksponatla-

rının qorunması, mühafizəsi ilə professional muzeyşünaslar, mütəxəssislər məşğul olurlar. Onlar muzeyləri üç qrupa (elmi-maarifləndirici, tədqiqi, tədrisi) və çoxlu sahələrə (tarixi, bədii, texniki, ədəbi, memorial, kompleks və s.) ayırd edirlər.

Müasir memorial muzey - ekspozisiyanın yerləşəcəyi bina və memorial sahədən ibarət olan, muzeyin arxitektura formasını əks etdirən mürəkkəb bir kompleksdir.

Məhz belə memorial muzeylərdən biri də adı dünya mədəniyyəti tarixinin qızıl səhifələrinə düşən, öz parlaq istedadı ilə əbədiyyətə qovuşan qüdrətli sənətkar, zəngin, çoxsahəli və çoxjanrlı yaradıcılığa malik böyük şəxsiyyət, parlaq istedad sahibi, felyetonçu, pedaqoq, ictimai xadim, publisist, görkəmli musiqişünas, ümumiyyətlə, Azərbaycan professional musiqisinin banisi dahi Üzeyir Hacıbəyovun ev muzeyidir.

***Mənim üçün Üzeyir bəy bir dünyadır. Birinci növbədə ona görə ki, bu böyük insan özünün, öz milli varlığının üzərində boy atdı, ucaldı. Üzeyir bəy sənətkar kimi ilk növbədə şəxsiyyətdir, vətəndaşdır. Onun adına yaradılmış muzey xalqımızın pərəstiş yeri, inam ocağı olmalıdır. Bu muzeyi təşkil edənlərə eşq olsun!***

***Bəxtiyar Vahabzadə***
***(1978-ci il)***

Muzey işinin təbliğini gücləndirən məsələlərdən biri də muzeydə aparılan mühazirələrdir (ekskursiyalar). Yəni muzeyə gələn qonaqlar bələdçi tərəfindən eksponatlarla tanış olur, onların əldə olunması, qorunması, mahiyyəti ilə məlumatlandırılırlar. Məsələn, bizim muzeyə hər il minlərlə yerli və xarici qonaqlar təşrif buyururlar. Onlar üçün ekskursiyalar bəstəkarın musiqi sədaları altında aparılır, onun həyat və yaradıcılığına həsr olunmuş, operettalarına çəkilmiş bədii və sənədli filmlər göstərilir. Muzeyin rəy kitabındakı qeydlərdən də göründüyü kimi, bu sənət məbədi xarici qonaqlarda son dərəcə zəngin təəssurat oyadır. Bu kitabda dünya xalqlarının müxtəlif dillərində yazılmış ürək sözlərinə rast gəlmək olar. Onların içərisində tələbələr, yazıçılar, şairlər, ictimai xadimlər, siyasətçilər, Üzeyir bəyi sağlığında tanıyan şəxslərin adlarını göstərmək olar.

***Azərbaycanın bütün musiqi mədəniyyətinin ürəyi sayılan evin, Üzeyir Hacıbəyovun ev muzeyinin vəziyyətinə heyranam. Ü.Hacıbəyovu tanıdığıma görə xoşbəxtəm və vaxtilə mənə etdiklərinə görə ona təşəkkür edirəm. Böyük qəlb həyəcanıyla.***

***Tixon Xrennikov***
***(1982-ci il)***

Muzeyin yaradılmasında məqsəd Üzeyir bəyin həyat və yaradıcılıq salnaməsini - mənalı ömür dəqiqələrini, ecazkar ilhamının böyük uğurlarını, maarif və mədəniyyətimizin tərəqqisi yolunda yorulmadan apardığı gərgin mübarizə anlarını, musiqi irsini dərindən öyrənmək, geniş xalq kütlələrinə çatdırmaq, Azərbaycan milli musiqisini respublikamızın hüdudlarından kənarda geniş yayılmasını təbliğ etməkdir. Üzeyir bəyin əsərlərinin xaricdə yayılıb şöhrət tapması Azərbaycan mədəniyyətinin, incəsənətinin beynəlmiləl və ümumbəşəri keyfiyyətini nümayiş etdirir.

Muzeydə aparılmış təmir işlərinə baxmayaraq, onun memoriallığı, bəstəkarın sağlığında olan ab-hava qorunub saxlanılmaqdadır. Burada bəstəkarın ev əşyaları, şəxsi geyimləri, əsərlərindən ibarət sərgilər, Üzeyir bəyin özünün, ailəsinin, dostlarının, həmkarlarının fotoşəkilləri, nadir afişalar, klavirlər, partituralar, müəlliflər tərəfindən ustadın özünə və muzeyinə verilmiş kitablar böyük ehtiramla qorunur.

Onu da qeyd edim ki, muzeyin ekspozisiya zallarından başqa konfrans zalı da vardır. Bakıda olan ev muzeylərinin əksəriyyətinin ayrıca lektoriyası (tədbirlər üçün nəzərdə tutulmuş xüsusi otaq) yoxdur. Yalnız Üzeyir bəyin ev muzeyində belə görüş otağı mövcuddur ki, bu da vizual texniki vasitələrlə tam təmin edilmişdir. Qədim və zəngin tariximizi araşdırmaq, mühafizə etmək, gənc nəsillərə doğru və düzgün aşılamaqdan ötrü müxtəlif tədbirlərin, elmi-praktiki konfransların keçirilməsi, bəhs olunan mövzu ətrafında filmlərə, nadir səs yazılarına qulaq asmaq üçün bu otaqdan geniş istifadə olunur.

Bəstəkarın ev muzeyi hələ 50-ci illərdə açılmalı idi. Belə ki, dahi sənətkarın ölümündən sonra Azərbaycan SSRİ Nazirlər Soveti Üzeyir Hacıbəyovun adının əbədiləşdirilməsi haqqında 16 fevral 1949-cu il tarixli qərar qəbul etdi. Bu qərarın IV bəndində deyilirdi: "Azərbaycan SSRİ Mədəniyyət Nazirliyi yanında İncəsənət İşləri şöbəsinə tapşırılsın ki, Bakı şəhəri, Ketsxoveli küçəsi ev 67 və Şuşa şəhərində Üzeyir Hacıbəyovun ev muzeyi yaradılsın".

Bu qərarda daha sonra göstərilirdi: "...Bakı şəhərində Üzeyir Hacıbəyovun abidəsi ucaldılsın, bəstəkarın həyat və yaradıcılığı haqqında monoqrafiya nəşr edilsin, bir çox təşkilatlara, o cümlədən, Azərbaycan Dövlət Konservatoriyasına, Bakı şəhərindəki Azadlıq küçəsinə, Naxçıvan Müəllimlər İnstitutuna, Şuşa şəhərindəki orta məktəbə Üzeyir Hacıbəyovun adı verilsin və "Monolit" adlı binaya xatirə lövhəsi vurulsun".

Üzeyir bəyin Bakıdakı ev muzeyinin açılışı bir





qədər geciksə də, Şuşa şəhərində, böyüyüb boya-başa çatdığı ocaqda ev muzeyinin açılışı 1959-cu ilə təsadüf etdi.

İkinci təşəbbüs Üzeyir bəyin həyat yoldaşı Məleykə xanım Hacıbəyova tərəfindən gəlmişdir. Onun 1966-cı ildə Azərbaycan KP MK-nın sədri Vəli Axundova göndərdiyi məktubda deyilirdi:

***Azərbaycan KP***
***MK-nın sədri***
***V.Y.Axundov yoldaşa***

***Hörmətli Vəli Yusifoviç!***

***Ağır yataq xəstəsi olduğuma baxmayaraq, on səkkiz il yalnız məni deyil, bir çoxlarını da narahat edən fikirlərimi Sizinlə bölüşmək istərdim. 19 fevral 1949-cu il Üzeyir Hacıbəyovun Şuşa və Bakıda ev muzeylərinin yaradılması haqqında Azərbaycan SSR-i Nazirlər Kabineti tərəfindən qərar qəbul edilmişdir. Şuşada evin bir hissəsində umumi səy nəticəsində muzeyin bir növ oxşarı təşkil edilmişdir. Bakıda muzeyin yaradılmasına gəlincə isə, artıq 17 ildir ki, heç bir iş görülməmişdir. Bu məsələ məni daha çox ona görə narahat edir ki, bütün bu illər ərzində Üzeyir Hacıbəyovun yaxın köməkçisi - R.H.Xəlilovla muzey üçün xeyli dəyərli material toplamışıq və qısa bir zamanda bu material toplusu ilə məşğul olacaq muzeyin yaradılması vacibdir. Bu, xalqı naminə çalışmış layiqli oğlunun xatirəsinin əbədiləşdirilməsi, onun gələcəkdə xalqının yaddaşında yaşaması üçün lazımdır. Ağır xəstəliyimin nəticəsini bilmədən, muzeyin yaradılması məsələsini həll etməyi xahiş edirəm. Bunun üçün hər şey: həm Hökumət qərarı, həm materiallar, həm də böyük şövq və həvəslə çalışan şəxslər də var. Partiya və Hökumət qərarının həyata keçirilməsi üçün yalnız Sizin qəti sözünüz kifayətdir.***

***Öz tərəfimdən muzeyin bütün təşkilatı işlərini, muzeyə aid materialları və Üzeyir bəyin yaradıcılıq irsini - Ramazan Həmzət oğlu Xəlilova həvalə edirəm.***

***5 avqust 1966-cı il***
***1 №-li Xəstəxana***
***Məleykə Hacıbəyova.***

Lakin bəstəkarın ev muzeyinin yaradılması işi yenə də gecikirdi. Sanki buna maneə vardır...

Nəhayət, 20 noyabr 1975-ci ildə Azərbaycan KP MK-nın I katibi Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Bakıda, bəstəkarın 27 il (1915-1942-ci illər) yaşadığı, həyat və yaradıcılığının çox hissəsini keçirdiyi bir məkanda ev muzeyinin təntənəli açılışı olur. Muzeyin təşkilatçısı olan R.Xəlilov isə, elə həmin ildə də H.Əliyev tərəfindən bu əvəzsiz musiqi məbədinə ömürlük müdir təyin edilir.

(Qeyd: Muzeyin təmiri dövründə (1973-cü il) müdir vəzifəsinə Nazim Şıxiyev təyin edilmişdir).

Ramazan Həmzət oğlu Xəlilov 1901-ci il dekabrın 27-də Qroznı şəhərində zadəgan ailəsində anadan olmuşdur (Ramazan bəyin nəsli əslən XVII əsrdə Balakənə köçən avarlardandır). 1908-1914-cü illərdə Tiflisdə gimnaziyada oxumuş, orada çar II Nikolayı görmüş, onun bir neçə sualına cavab da vermişdir.

Ramazan bəy o illəri belə xatırlayırdı: "1913-cü ildə Tiflisdə səs yayıldı ki, Romanovlar sülaləsinin 300 illiyi münasibətilə keçirilən şənliklərdə iştirak etmək üçün II Nikolay ailəsi ilə Tiflisə gəlir. Onda mən VI gimnaziyanın dördüncü sinfində oxuyurdum. Vağzaldan çarın dincələcəyi saraya qədər yolboyu adamlar düzülmüşdü. Bizim gimnaziyanın şagirdləri üçün körpünün yaxınlığında yer ayrılmışdı. Qabaqda fəxri qarovul dəstəsi, sonra üstüaçıq avtomobildə çar, arvadı və qızları, daha sonra isə at üstündə əsgərin qucağında çarın xəstə oğlu Aleksey keçib getdilər. Dağılışanda bizə dedilər ki, sabah hamı təzə paltar geyinsin, çar gimnaziyaya gələcək.

Ertəsi gün saat 11-də II Nikolay gimnaziyaya gəldi. Biz uzun dəhliz boyu sıra ilə düzülmüşdük. Çar xəbər aldı ki, burda kimlər oxuyur? Direktor cavab verdi: "Ruslar, gürcülər, tatarlar...". II Nikolay soruşda: "Şamilin həmyerlilərindən də oxuyan varmı?". Direktor bir anlıq fikrə getdi və dedi: "Xəlilov, yanıma!". Mən sıradan çıxıb hərbi yerişlə onlara yaxınlaşdım. II Nikolay: "Salam, cavan oğlan!" dedi. Mən də əsgəri qaydada ona cavab verdim. Bu çarın xoşuna gəldi və soruşdu: "Necə oxuyursan?". Mənim əvəzimə direktor cavab verərək - "Bütün qiymətləri beşdir" dedi. Çar yenə soruşdu: "Bəs o hansı güzəştlərdən istifadə edir?". Həmin dövrdə dağıstanlı uşaqlara müxtəlif güzəştlər verilirdi. Onlar məktəblərdə pulsuz oxuyur, dövlət hesabına paltar və yeməklə təmin olunurdular. Oxuduğum gimnaziyada isə şagirdlər ildə 500 manat təhsil haqqı verirdilər (həmçinin mən). Çarın göstərişi ilə məni təhsil haqqından azad etdilər".

1914-1917-ci illərdə Moskvada Straxov gimnaziyasında təhsilini davam etdirdikdən sonra o, Tiflisə qayıtmış, atası Həmzət bəyin Azərbaycanın görkəmli generalları Səməd bəy Mehmandarov və Əliağa Şıxlinskinin xeyir-duası ilə yaratdığı "Ləzgi alayı"nda xidmətə başlamışdır. 1918-ci ildə Azərbaycan Cümhuriyyəti ordusunun strukturuna daxil olan bu alayın tərkibində gənc Ramazan bəy Zaqatala, Qəbələ, Şəki və Gəncənin erməni quldurlarından təmizlənməsində şücaət göstərmişdir.

1923-cü ildən jurnalistika sahəsində fəaliyyətə başlayan Ramazan bəy, 1933-cü ildə Moskva Redaktə-Nəşriyyat İnstitutunda peşəkar mühərrirlik təhsili alır. Sonralar SSRİ miqyasında tanınan bir jurnalist olmuş, bir müddət "Komsomolskaya pravda"nın Azərbaycan üzrə xüsusi müxbiri kimi fəaliyyət göstərmişdir. Ramazan bəy Azərbaycan, tatar, avar, ləzgi, gürcü və rus dillərində sərbəst danışırdı.

1938-ci ildə R.Xəlilov dahi bəstəkarımız Ü.Hacıbəyovun dəvəti ilə Bakıya gəlir, əvvəlcə, Azərbaycan Dövlət Konservatoriyasında Üzeyir bəyin şəxsi katibi, 1941-1953-cü illərdə isə konservatoriyada birinci prorektor vəzifəsində çalışır. 25 il Azərbaycan Musiqi Fonduna rəhbərlik edən Ramazan bəy, Opera və Balet Teatrında icraçı direktor vəzifəsində çalışmış, 1952-ci ildə Opera studiyasını yaradaraq uzun illər onun müdiri olmuşdur. Azərbaycan mədəniyyətinə dair bir neçə kitab yazmış və bu işlərinə görə, o, Azərbaycan Bəstəkarlar İttifaqının fəxri üzvü seçilmişdir.

Ramazan bəy tərcüməçiliklə də məşğul olmuşdur. Ü.Hacıbəyovun dünya şöhrətli "Arşın mal alan" operettasını, həmçinin, Vasif Adıgözəlovun "Nənəmin şahlıq quşu" musiqili komediyasını, Nəriman Nərimanovun "Bahadır və Sona" əsərini və bu kimi yüksək səviyyədə yazılmış digər əsərləri də rus dilinə çevirmişdir.

1995-ci ildə mərhum prezidentimiz H.Əliyevin fərmanı ilə Azərbaycan mədəniyyətinin inkişafında, xüsusilə, dahi bəstəkar Ü.Hacıbəyovun ədəbi, musiqi irsinin qorunmasında və təbliğindəki xidmətlərinə görə R.Xəlilov "Şöhrət" ordeni ilə təltif olunmuşdu.

Muzeyin hal-hazırki müdiri muzeydə müxtəlif vəzifələrdə çalışmış bəstəkar Sərdar Fərəcovdur.

Sərdar Fərəcov ilk musiqi təhsilini Asəf Zeynallı adına musiqi texnikumunda, Bəhram Mansurovun sinfində almışdır. Müəllimi B.Mansurovu muğam sənətinin müdrik bilicisi və mahir ifaçısı adlandıraraq, onun Azərbaycan xalq musiqisinin inkişafında müstəsna rolu olduğunu bildirmişdir.

Təhsilini Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında Xəyyam Mirzəzadənin sinfində davam etdirmişdir. Konservatoriyanı bitirməklə o, bəstəkar, musiqi tarixi və nəzəriyyəsi müəllimi ixtisasına yiyələnmişdir. Konservatoriyada oxuduğu illərdə bir neçə respublika, ümumittifaq müsabiqə və festivallarının iştirakçısı olub.

Müxtəlif diplom və mükafatlara - 1982-ci ildə Bakıda keçirilən nəfəsli alətlərin Zaqafqaziya festivalında "TRİO"- su, həmin ildə Azərbaycan Xor Cəmiyyətinin təşkil etdiyi müsabiqədə "Sudan gələn sürməli qız" mahnısına görə - layiq görülmüşdü. Əsərləri bir çox konsertlərdə - 1987-ci ildə Moskvada sovet-fin bəstəkarlarının birgə konsertində, Azərbaycan bəstəkarlarının V qurultayında - uğurla səslənmişdir.

Qeyd edim ki, "Azərbaycanfilm"in istehsal etdiyi çoxseriyalı "Koroğlu" filminin musiqisinin, mərhum prezidentimiz Heydər Əliyevə həsr etdiyi "Böyük vətəndaş haqqında "Oda" (1996) və "Loğman əlləri" (1998, mahnını Mübariz Tağıyev ifa etmişdir) əsərlərinin müəllifi də S.Fərəcovdur.

Muzeydə çalışdığı müddət ərzində o, Üzeyir Hacıbəyovun unudulmuş, yaddan çıxmış əsərlərini araşdırıb üzə çıxarır, onları yenidən işləyir, gələcək nəsillərə aşılayır. Belə əsərlərdən biri də "Səni gözləyir" mahnısıdır. Bu mahnının tarixi çox maraqlıdır. Bu haqda Sərdar müəllim 2005-ci ildə "Respublika" qəzetində dərc etdirdiyi "Unudulmuş mahnı - "Səni gözləyir" məqaləsində ətraflı məlumat vermişdir. Belə ki, mahnı 1931-ci ildə yazılmış (mahnının mətni Hüseyn Natiqə məxsusdur), bəstəkar tərəfindən axıra kimi tamamlanmış və sonda müəllifin imzası ilə təsdiqlənmişdir. Adı çəkilən şer əməkçilərə, zavod işçilərinə həsr olunub. Üzeyir bəyin bu mövzuda əsərləri çoxdur. Misal üçün "Mazut", "Kolxoz çöllərində", "Pilotlar" və s. əsərlərini göstərmək olar. Bütün bu əsərlər "Səni gözləyir"dən fərqli olaraq, el arasında məşhurlaşıb, öz yerini tutmuşlar. Lakin bu şer muzeyin fondunda "Aşıqsayağı" adı ilə qeyd olunduğundan, "Aşıqsayağı" triosu ilə dəyişik salınmış və arada itib-batmışdır. (Qeyd edək ki, "Səni gözləyir" mahnısında "aşıqsayağı" termin kimi istifadə edilmişdir).

Üzeyir Hacıbəyovdan bizə çox böyük, müqəddəs irs qalmışdır. Bu irs elə tükənməz bir ideya-estetik qida mənbəyidir ki, ondan nəsil-nəsil insanlar faydalanacaqlar. Bu irsi yaşatmaq üçün muzeyimiz yorulmadan çalışır, yeni-yeni eksponatların fonda daxil edilməsi işi ilə məşğul olur.

***Muzey həm də təhsil mənbəyi olduğu üçün cəmiyyətin marağına xidmət etməli, ictimaiyyət üçün açıq olmalıdır. Fürsətdən istifadə edərək, Üzeyirsevərləri "18 may - Beynəlxalq Muzeylər günü" münasibətilə təbrik edir və yeni təmir olunmuş muzeyimizə baxmağa dəvət edirəm.***

**Sabina HAFİZOVA,**
**Ü.Hacıbəyovun ev-muzeyinin əməkdaşı**